**AZƏRBAYCAN RESPUBLİKASI**

# TƏHSİL NAZİRLİYİ

*№ 46-03-3613/17*

*«22» 07 2004 il*

**Qeyri-dövlət ali məktəb rəhbərlərinə**

Bildiyiniz kimi, 1999-cu ildən başlayaraq Təhsil Nazirliyində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri ilə bağlı məlumat bankı yaradılmışdır. Hər tədris ilinin əvvəlində ali məktəbə qəbul olunanlar, xaric olunanlar, bərpa və köçürülənlər, ali məktəbi bitirənlər barədə təhsil müəssisələri rəhbərləri tərəfindən Nazirliyə təqdim olunan məlumatlar əsasında bankda olan informasiyalar yeniləşdirilir. Bununla yanaşı hər bir təhsil müəssisəsinə qəbul olunan tələbələrin siyahısı Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından da alınır. TQDK-a tərəfindən təqdim olunan siyahı Təhsil Nazirliyində olan məlumatlarla müqayisə olunur. Bununla da Təhsil Nazirliyi tərəfindən ali məktəblərdə tələbə kontingentinin yerdəyişməsinə tam nəzarət olunur.

Lakin, son illərin araşdırmaları zamanı Nazirliyin məlumat bankında adları olmayan şəxslərin bir ali məktəbdən digərinə köçürülməsi, ali təhsil müəssisələrinin möhür və blanklarının, Təhsil Nazirliyinin dövlət nümunəli akademik arayışlarının saxtalaşdırılması faktları aşkar olunmuş, nəticə olaraq həmin tələbələrin köçürülməsi barədə əmrlər ləğv olunmuşdur.

Qeyd olunanlarla bağlı nəzərinizə çatdırırıq ki, rəhbərlik etdiyiniz təhsil müəssisəsinə qeyri-dövlət müəssisəsindən tələbənin köçürülməsi məsələsinə yalnız onun həmin təhsil müəssisəsində təhsil aldığı barədə Təhsil Nazirliyinin arayışı təqdim edildiyi halda mövcud əsasnamənin və Nazirliyin 02.06.2004 tarixli 46-11-2590/16 №-li təlimati məktubunun tələblərinə riayət etməklə baxıla bilər. Tələbələrə ali məktəbdən köçürülmə ilə bağlı akademik arayışlar isə yalnız həmin arayış təqdim edildiyi halda yazıla bilər.

Əgər rəhbərlik etdiyiniz ali məktəbdə yay tətili müddətində bu qəbildən olan tələbələrin köçürülməsi məsələsinə baxılıbsa, onda həmin tələbələrin siyahısı araşdırılmaq üçün təcili olaraq Təhsil Nazirliyinə təqdim olunmalıdır.

**Misir Mərdanov**